## *Balayar SADİQ*

### Yuva

Bir çöp də yuvadı, oğlum,
bir quş dimdiyi də.
Dağılmış yuvaların ağrısını
quşlar daşıyır dimdiklərində.
Vətən də yuvadı, oğlum,
həsrəti yaşayır ölən qəribin
torpaqda çürüyə bilməyən
sümüklərində...

Söz də yuvadı, oğlum,
səs də yuvadı...
Dünyanın ən gözəl sözü,
ən şirin səsi hələ yoldadı.
Qəm də yuvadı, oğlum,
dərd də yuvadı.
Bəxti çiliklənən,
göz yaşları ürəyinə yağan
bəndənin yuvasıdı qəm.

Ölüm də yuvadı, oğlum,
Ömürləri çöp-çöp yığan,
bizimçün darıxan yuva.
Son nəfəs buz bağlayanda
hamını isidən yuva.
Kimsənin sevmədiyi
hamını sevən yuva.

### Başsağlığı

Buludların
göz yaşına bükün
ölüm xəbərimi.

Kəndimizdə
bir alça ağacının
xatirəsində qazın qəbrimi.

Kəndimizin alça ağacları,
Uşaqlığımın
ətrinə bələnmiş
xatirə boğçası.
Səngərlərdə
barıt qoxusu hopmuş ömrümün,
Bir kənd saflığında
unudulmuş parçası -
kəndimizin alça ağacları.

Hər səhər
quşların nəğməsi yağar,
naxış-naxış, xana-xana.
Bir alça ağacının
tənhalığına.

Dostlar,
bir yaz axşamı,
Oxşayın bir alça ağacının
boyunda bitən başdaşımı.

Silin göz yaşını
misralarımla
alça çiçəklərinin.
Uşaqlığım - alça ağaclarına
başsağlığı verin.

### Yolları qaldırın ayağa

Şəhid anasının
dodağından düşən
ağıdı yollar.

Üşüyə-üşüyə gedir
ayaqyalın əsgər nəğmələri.

Bir ovuc
qələbə qoxusuna,
bir ovuc
səngər yuxusuna
bələnmiş
döyüş bayrağıdır yollar...

Yolları
qaldırın ayağa,
Vətənin
göz yaşını silsin.

### Qapılar

Dünya -
bir açıq qapı,
bir bağlı qapı,
bir qıfıllı qapı...

Açıq qapını keçdim,
Bağlı qapını açdım.
Əl uzatdım qıfıllı qapıya,
Gördüm əllərim əl deyil,
bir cüt qara daşdı.

Açıq qapını bağladım,
Bağlı qapını açıq saxladım,
Qıfıllı qapıda oturub
özümü ağladım.

Mən açıq qapı,
Sən bağlı qapı.
Bəxt qıfıllı qapı...